Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında körpələr evlərinin, körpələr evi-uşaq bağçalarının, uşaq bağçalarının, xüsusi uşaq bağçalarının və uşaq evlərinin inkişafı ilə bağlı tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli 1941 nömrəli Sərəncamının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədi ilə

**QƏRARA ALIRAM:**

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 28 iyun tarixli 1578 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 6, maddə 554) ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramına" 3 nömrəli əlavə - "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planında (2011-2015-ci illər)" aşağıdakı dəyişikliklər edilsin:

1. 2.2.3.17-ci və 3.1.2.1-ci yarımbəndlərin "İcraçı təşkilatlar" sütununda "TN" abreviaturasından sonra ", YİH" abreviaturası əlavə edilsin.

2. 3.1.1.5.5-ci yarımbəndin "İcraçı təşkilatlar" sütununda "TN" abreviaturası "YİH" abreviaturası ilə əvəz edilsin.

***İlham Əliyev***

***Azərbaycan Respublikasının Prezidenti***

***Bakı şəhəri, 1 iyun 2012-ci il.***